# Holcim (Azərbaycan) Açıq Səhmdar Cəmiyyəti

Maliyyə hesabatları və
31 dekabr 2019-cu il tarixində
başa çatan il üzrə müstəqil auditorun rəyi

# "HOLCİM (AZƏRBAYCAN)" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

## 31 DEKABR 2019-CU İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQLƏNMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNƏ DAİR HESABAT

Rəhbərlik Holcim (Azərbaycan) Açıq Səhmdar Cəmiyyətinin 31 dekabr 2019-cu il tarixinə maliyyə vəziyyətini, eləcə də həmin tarixdə başa çatan il üzrə əməliyyat nəticələrini, pul vəsaitlərinin hərəkətini və kapitalda dəyişiklikləri Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") müvafiq olaraq düzgün əks etdirən maliyyə hesabatlarının hazırlanmasına görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının hazırlanmasında rəhbərlik aşağıdakılara cavabdehdir:

- Mühasibat uçotu qaydalarının müvafiq şəkildə seçilməsinə və tətbiqinə;
- Məlumatların, o cümlədən mühasibat uçotu qaydalarının müvafiq, mötəbər, müqayisəli və anlaşıla bilən tərzdə təqdimatına;
- İstifadəçilərə xüsusi əməliyyatların, digər hadisə və şəraitlərin maliyyə vəziyyəti və maliyyə nəticələrinə təsirini anlamağa yardımçı olmaq üçün MHBS-in xüsusi tələblərinin yerinə yetirilməsi kifayət etmədikdə əlavə açıqlamalar verilməsinə; və
- Şirkətin fasiləsizlik prinsipinə əsasən fəaliyyətini davam etdirə bilməsi imkanlarının qiymətləndirilməsinə.

Həmçinin rəhbərlik aşağıdakılara görə məsuldur:

- Şirkət daxilində sağlam və effektiv daxili nəzarət sisteminin planlaşdırılması, tətbiqi və saxlanılmasına;
- Şirkətin əməliyyatlarının açıqlanması və izah edilməsi üçün adekvat mühasibat uçotunun aparılması, habelə maliyyə vəziyyətinin istənilən vaxt dəqiqliklə açıqlanması üçün yetərli olan və maliyyə hesabatlarının MHBS-a uyğun gəldiyini təmin edə biləcək müvafiq mühasibat uçotu qeydlərinin aparılmasına;
- Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq yerli uçot qeydlərinin aparılmasına;
- Şirkətin aktivlərinin mühafizə olunması üçün mümkün tədbirlər görülməsinə; və
- Saxtakarlıq və digər pozuntuların müəyyən edilməsi və qarşısının alınmasına.

Şirkətin 31 dekabr 2019-cu il tarixində başa çatan il üzrə maliyyə hesabatlarının buraxılması rəhbərlik tərəfindən 12 mart 2020-ci il tarixində təsdiqlənmişdir:

Rəhbərlik tərəfindən:

Frederic Guimbal,
Baş İcraçı Direktor
"Holcim (Azərbaycan)" ASC

Dilbər Sultanova,
Baş Maliyyə İnzibatçısı
"Holcim (Azərbaycan)" ASC

Əliabbas Salahov,
Baş Mühasib
"Holcim (Azərbaycan)" ASC

12 mart 2020-ci il

Deloitte.

Deloitte & Touche MMAC
Bakı Ağ Şəhər Ofis Binası
Nobel prospekti 25E
Baku, AZ1025, Azərbaycan

Tel.: +994 (12) 404 12 10
Fax: +994 (12) 404 12 11
deloitte.az

## MÜSTƏQİL AUDİTOR HESABATI

Holcim (Azərbaycan) Açıq Səhmdar Cəmiyyətinin Səhmdarlarına və Rəhbərliyinə

### Rəy

Biz "Holcim (Azərbaycan)" Açıq Səhmdar Cəmiyyətinin ("Şirkət") 31 dekabr 2019-cu il tarixinə maliyyə vəziyyəti haqqında hesabatdan və həmin tarixdə başa çatan il üzrə mənfəət və ya zərər və digər məcmu gəlirlər, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, habelə mühüm mühasibat uçotu prinsiplərinin icmalı daxil olmaqla qeydlərdən ibarət olan maliyyə hesabatlarının auditini apardıq.

Bizim fikrimizcə, əlavə edilən maliyyə hesabatları Şirkətin 31 dekabr 2019-cu il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə başa çatan il üzrə maliyyə nəticələri və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") uyğun olaraq bütün əhəmiyyətli aspektlər üzrə düzgün əks etdirir.

### Rəyin Əsasları

Biz auditi Beynəlxalq Audit Standartlarına ("BAS") uyğun olaraq həyata keçirdik. Həmin standartlar üzrə bizim məsuliyyətimiz irəlidə hesabatın *Maliyyə Hesabatlarının Auditi üzrə Auditorun Məsuliyyəti* bölməsində təsvir olunur. Biz, *Mühasiblər üçün Beynəlxalq Etika Standartları Şurasının Peşəkar Mühasiblər üçün Etika Məcəlləsinə ("MBESŞ Məcəlləsi")*, həmçinin Azərbaycanda maliyyə hesabatlarının auditi üzrə tətbiq edilən etika tələblərinə uyğun olaraq Şirkətdən asılı olmadan müstəqil şəkildə fəaliyyət göstəririk və digər etik öhdəliklərimizi bu tələblərə və MBESŞ Məcəlləsinə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutu auditor rəyinin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir.

### Maliyyə Hesabatları üzrə Rəhbərliyin və İdarəetmə Səlahiyyətləri olan Şəxslərin Məsuliyyəti

Rəhbərlik maliyyə hesabatlarının MHBS-yə uyğun olaraq hazırlanması və düzgün təqdim edilməsi, həmçinin saxtakarlıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq mühüm təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasını təmin etmək üçün rəhbərliyin zəruri saydığı daxili nəzarət üzrə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırlayarkən rəhbərliyin Şirkəti ləğv etmək və ya əməliyyatlarını dayandırmaq niyyətində olduğu və ya bunu etməkdən başqa heç bir real alternativi olmadığı hallar istisna olmaqla, rəhbərlik Şirkətin fəaliyyətini fasiləsizlik prinsipi ilə davam etdirməsi qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsizliklə bağlı məsələlərin açıqlanmasına və mühasibat uçotunun fasiləsizlik prinsipindən istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İdarəetmə səlahiyyəti olan şəxslər Şirkətin maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarət üçün məsuliyyət daşıyırlar.

Deloitte, "Deloitte Touche Tohmatsu Limited" (DTTL) Böyük Britaniyada təsis edilmiş, məhdud qarantiyada məsuliyyəti özəl cəmiyyətin birinə və yaxud bir neçəsinə, ona üzv şirkətlər şəbəkəsinə, və onlarla əlaqəli müəssisələrə şamil edilir. DTTL və ona üzv şirkətlər hüquqi cəhətdən bir-birindən ayrı və müstəqil şirkətlərdir. DTTL (həmçinin "Deloitte Global" adlanan) müştərilərə xidmətlər göstərmir. DTTL və ona üzv şirkətlər haqqında daha ətraflı məlumatı www.deloitte.com/about linkindən əldə edə bilərsiniz.

© 2020 Deloitte & Touche MMAC. Bütün hüquqlar qorunur.

**Maliyyə Hesabatlarının Auditi üzrə Auditorun Məsuliyyəti**

Bizim məqsədimiz ümumilikdə maliyyə hesabatlarında saxtakarlıq və ya səhv nəticəsində yarana biləcək mühüm təhriflərin olmaması barədə kifayət qədər əminlik əldə etmək və rəyimizi özündə birləşdirən auditor hesabatını hazırlamaqdır. Kifayət qədər əminlik yüksək səviyyəli əminliyi əks etdirir, lakin bu, BAS-a uyğun olaraq aparılan audit nəticəsində hər zaman mövcud olan bütün mühüm təhriflərin aşkar ediləcəyinə zəmanət vermir. Təhriflər saxtakarlıq və ya səhv nəticəsində yarana bilər və fərdi və ya məcmu halda götürməklə, istifadəçilərin hazırkı maliyyə hesabatları əsasında qəbul edəcəyi iqtisadi qərarlara təsir göstərmələrini ehtimal etməyə əsas olacağı hallarda əhəmiyyətli hesab edilir.

BAS-a uyğun olaraq aparılmış auditin bir hissəsi kimi, biz audit zamanı peşəkar mülahizələr irəli sürür və peşəkar inamsızlığı qoruyub saxlayırıq. Biz həmçinin:

- Maliyyə hesabatlarının saxtakarlıq və ya səhv nəticəsində əhəmiyyətli şəkildə təhrif olunması risklərini müəyyən edir və qiymətləndirir, həmin risklərə cavab olaraq audit prosedurlarını layihələndirir və həyata keçirir, həmçinin rəyimiz üçün əsas verəcək yetərli və müvafiq audit sübutu əldə edirik. Saxtakarlıq nəticəsində yaranmış mühüm təhriflərin aşkar olunmaması riski səhv nəticəsində yaranmış mühüm təhriflərin aşkar olunmaması riskindən yüksəkdir, belə ki, saxtakarlığa gizli sövdələşmə, dələduzluq, qəsdən səhv buraxma, yanlış təqdimat və ya daxili nəzarət qaydalarına əməl olunmaması daxil ola bilər.
- Müəyyən şəraitlərdə münasib olan audit prosedurlarının layihələndirilməsi məqsədilə auditə aid olan daxili nəzarət elementləri haqqında anlayış əldə edir, lakin bu zaman Şirkətin daxili nəzarət mexanizminin səmərəliliyi barədə rəy bildirmək məqsədi güdmürük.
- Rəhbərlik tərəfindən istifadə edilmiş mühasibat uçotu prinsiplərinin münasibliyini, edilmiş uçot təxminlərinin və aidiyyəti açıqlamaların əsaslılığını qiymətləndiririk.
- Rəhbərlik tərəfindən mühasibat uçotunun fasiləsizlik prinsipindən istifadənin müvafiqliliyi və əldə olunmuş audit sübutuna əsaslanaraq Şirkətin öz fəaliyyətini fasiləsizlik prinsipi ilə davam etdirməsinə şübhə yarada biləcək hadisə və ya şəraitlərlə bağlı mühüm qeyri-müəyyənliyin mövcud olub-olmaması barədə nəticə çıxardırıq. Mühüm qeyri-müəyyənliyin olması qənaətinə gəldiyimiz halda, biz auditor hesabatımızda diqqəti maliyyə hesabatlarının müvafiq açıqlamalarına yönəltməli və ya belə açıqlamalar qeyri-kafi olduqda rəyimizə düzəliş etməliyik. Bizim nəticələr auditor hesabatımızın tarixinədək əldə olunan audit sübutuna əsaslanır. Bununla belə, gələcək hadisələr və şəraitlər Şirkətin öz fəaliyyətini fasiləsizlik prinsipi ilə davam etdirməməsinə səbəb ola bilər.
- Maliyyə hesabatlarının ümumi təqdimatı, struktur və məzmunu, o cümlədən açıqlamaları və maliyyə hesabatlarının təməl əməliyyat və hadisələri düzgün əks etdirib-etdirməməsini qiymətləndiririk.

Biz idarəetmə səlahiyyətləri olan şəxslərə digər məsələlərlə yanaşı, auditin planlaşdırılmış əhatə dairəsi və vaxtı, audit nəticələri, o cümlədən audit zamanı daxili nəzarətdə aşkar etdiyimiz hər hansı mühüm çatışmazlıqlar barədə məlumat veririk.

Deloitte + Touche LLAC

12 mart 2020-ci il

DELOITTE & TOUCHE
MƏHDUD MƏSULİYYƏTLİ AUDİTOR CƏMİYYƏTİ
AZERBAIJAN

## HOLCIM (AZƏRBAYCAN) AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

### 31 DEKABR 2019-CU İL TARİXİNƏ
### MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ DİGƏR MƏCMU GƏLİRLƏR HAQQINDA HESABAT
*('000 Azərbaycan Manatı ilə)*

| | Qeydlər | 2019 | 2018 |
|---|---|---|---|
| Gəlir | 6 | 119,848 | 116,332 |
| Satışın maya dəyəri | 7 | (65,644) | (64,133) |
| **Ümumi mənfəət** | | **54,204** | **52,199** |
| Çatdırılma xərcləri | 8 | (19,983) | (15,394) |
| Ümumi və inzibati xərclər | 9 | (10,799) | (10,911) |
| Satış xərcləri | 10 | (4,217) | (5,520) |
| Əmlak, qurğu və avadanlığın silinməsi üzrə gəlir/(zərər) | | 72 | (5) |
| **Əməliyyat mənfəəti** | | **19,277** | **20,369** |
| Maliyyə xərci | 11 | (11,599) | (9,874) |
| Digər uzunmüddətli aktivlərin dəyərsizləşməsi | | (1,500) | - |
| Məzənnə fərqindən (zərər)/ gəlir, xalis | | 2,442 | 973 |
| Ehtiyatların bərpası üzrə xalis gəlir | 16,21 | 5,783 | - |
| Digər gəlirlər | | 257 | - |
| Maliyyə gəliri | | - | 3 |
| **Mənfəət vergisindən əvvəl gəlir** | | **14,660** | **11,471** |
| Mənfəət vergisi xərci | 12 | (5,506) | (4,404) |
| **İl üzrə mənfəət** | | **9,154** | **7,067** |
| **İl üzrə cəmi məcmu gəlir** | | **9,154** | **7,067** |

## HOLCIM (AZƏRBAYCAN) AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

**31 DEKABR 2019-CU İL TARİXİNƏ**
**MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT**
***('000 Azərbaycan Manatı ilə)***

| Aktivlər | Qeydlər | 2019 | 2018 |
|---|---|---|---|
| **Uzunmüddətli aktivlər** | | | |
| Əmlak, qurğu və avadanlıq | 13 | 256,476 | 261,162 |
| Qeyri-maddi aktivlər | | 851 | 997 |
| Digər uzunmüddətli aktivlər | 14 | 8,983 | 10,535 |
| Təxirə salınmış vergi aktivi | 12 | 1,501 | 7,006 |
| **Cəmi uzunmüddətli aktivlər** | | **267,811** | **279,700** |
| **Qısamüddətli aktivlər** | | | |
| Mal-material ehtiyatları | 15 | 13,689 | 12,396 |
| Ticarət və digər debitor borcları | 16 | 10,550 | 9,424 |
| Vergi üzrə debitor borcları | | 680 | 330 |
| Qabaqcadan ödəmələr və avanslar | | 1,466 | 2,453 |
| Digər qısamüddətli aktivlər | | 294 | - |
| Əlaqəli tərəflərdən alınacaq vəsaitlər | 18 | 47 | 452 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 17 | 12,017 | 3,631 |
| **Cəmi qısamüddətli aktivlər** | | **38,743** | **28,686** |
| **Cəmi aktivlər** | | **306,554** | **308,386** |
| **Kapital və öhdəliklər** | | | |
| **Kapital** | | | |
| Nizamnamə kapitalı | 19 | 31,813 | 31,813 |
| Əlavə ödənilmiş kapital | | 3,302 | 3,302 |
| Bölüşdürülməmiş mənfəət | | 104,034 | 94,880 |
| **Cəmi kapital** | | **139,149** | **129,995** |
| **Uzunmüddətli öhdəliklər** | | | |
| Əlaqəli tərəfə ödəniləcək kreditlər | 20 | 132,632 | 148,307 |
| Uzunmüddətli maliyyə lizinqi | 3 | 5,438 | - |
| Ehtiyatlar | 21 | 6,044 | 4,731 |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | **144,114** | **153,038** |
| **Qısamüddətli öhdəliklər** | | | |
| Ticarət kreditor borcları | 22 | 6,934 | 4,649 |
| Digər ödəniləcək qısamüddətli kreditlər | 20 | 3 | 2,852 |
| Əlaqəli tərəfə ödəniləcək kreditlər | 20 | 148 | 210 |
| Əlaqəli tərəflərə ödəniləcək hesablanmış öhdəliklər | 18 | 1,406 | 1,543 |
| Hesablanmış öhdəliklər | 23 | 6,370 | 7,959 |
| Qısamüddətli maliyyə lizinqi | 3 | 468 | - |
| Ödəniləcək dividendlər | | 58 | 58 |
| Müştərilərdən alınmış avanslar | | 3,823 | 1,998 |
| Ehtiyatlar | 21 | 4,081 | 6,084 |
| **Cəmi qısamüddətli öhdəliklər** | | **23,291** | **25,353** |
| **Cəmi kapital və öhdəliklər** | | **306,554** | **308,386** |

## HOLCIM (AZƏRBAYCAN) AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

### 31 DEKABR 2019-CU İL TARİXİNƏ
### PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT
*('000 Azərbaycan manatı ilə)*

| | Qeydlər | 2019 | 2018 |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyəti** | | | |
| Mənfəət vergisindən əvvəl gəlir | | 14,660 | 11,471 |
| Vergidən əvvəl zərəri xalis pul vəsaitlərinin hərəkəti ilə üzləşdirmək məqsədilə aparılmış qeyri-nağd düzəlişlər | | | |
| Köhnəlmə və amortizasiya | | 15,913 | 16,094 |
| Bank komissiyaları istisna olmaqla maliyyə xərcləri | 11 | 11,599 | 9,874 |
| Əmlak, qurğu və avadanlığın silinməsi üzrə zərər/(gəlir) | | (72) | 5 |
| Məzənnə fərqindən (gəlir)/ zərər | | (2,442) | (973) |
| Az istifadə olunan mal-material ehtiyatları üçün ehtiyat | | – | 500 |
| Ümidsiz borclar üçün ehtiyatın bərpası | 16 | (3,683) | (661) |
| Vergi cərimələri üçün ehtiyatın bərpası | 21 | (2,483) | 290 |
| Mükafatlar üçün ehtiyat | 21 | 2,032 | 1,750 |
| Xəsarət halları üçün ehtiyatın bərpası | 21 | – | (113) |
| Digər uzunmüddətli aktivlərin dəyərsizləşməsi | 14 | 1,500 | – |
| **Dövriyyə kapitalında dəyişikliklərdən əvvəl əməliyyat mənfəəti** | | **37,024** | **38,237** |
| Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklər | | | |
| Mal-material ehtiyatlarında artım | | (1,293) | (2,873) |
| Ticarət və digər debitor borclarında (artım)/azalma | | 2,557 | (1,782) |
| Qabaqcadan ödəmələr və avanslarda (artım)/azalma | | 1,256 | (1,017) |
| Əlaqəli tərəflərdən alınacaq vəsaitlərdə (artım)/azalma | | 405 | (238) |
| Vergi üzrə debitor borclarında artım | | (619) | (165) |
| Ticarət və digər kreditor borclarında artım/(azalma) | | 2,285 | (877) |
| Hesablanmış öhdəliklərdə artım/(azalma) | | (1,589) | 5,796 |
| Əlaqəli tərəflərə ödəniləcək hesablanmış öhdəliklərdə artım/(azalma) | | (92) | 22 |
| Müştərilərdən alınmış avanslarda artım | | 1,826 | 877 |
| Ehtiyatlarda azalma | | (1,660) | (1,225) |
| Digər qısamüddətli aktivlərdə artım | | (294) | – |
| **Əməliyyatlardan əldə edilmiş pul vəsaitləri** | | **39,806** | **36,755** |
| Ödənilmiş faiz | | (10,796) | (10,102) |
| **Əməliyyat fəaliyyəti üzrə əldə edilmiş xalis pul vəsaitlərinin hərəkəti** | | **29,010** | **26,653** |
| İnvestisiya fəaliyyətindən pul vəsaitlərinin hərəkəti | | | |
| Əmlak, qurğu və avadanlığın alınması | | (4,116) | (4,003) |
| Əmlak, qurğu və avadanlığın satılmasından daxilolmalar | | 185 | 55 |
| Digər uzunmüddətli avansların istifadəsi | | 51 | – |
| **İnvestisiya fəaliyyəti üzrə istifadə edilmiş xalis pul vəsaitlərinin hərəkəti** | | **(3,880)** | **(3,948)** |
| Maliyyələşdirmə fəaliyyətindən pul vəsaitlərinin hərəkəti | | | |
| Faiz hesablanan kreditlərin qaytarılması | 20 | (16,257) | (24,897) |
| Uzunmüddətli icarə öhdəliklərinin qaytarılması | | (487) | – |
| **Maliyyələşdirmə fəaliyyəti üzrə istifadə edilmiş xalis pul vəsaitlərinin hərəkəti** | | **(16,744)** | **(24,897)** |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərində xalis (azalma)/artım | | 8,386 | (2,192) |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri, ilin əvvəlinə | 17 | 3,631 | 5,823 |
| **Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri, ilin sonuna** | **17** | **12,017** | **3,631** |

## HOLCİM (AZƏRBAYCAN) AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

### KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT
*('000 Azərbaycan manatı ilə)*

| | Nizamnamə Kapitalı | Əlavə ödənilmiş kapital | Bölüşdürülməmiş mənfəət | Cəmi |
|---|---|---|---|---|
| **1 yanvar 2018-ci il tarixinə qalıq** | **31,813** | **3,302** | **87,813** | **122,928** |
| İl üzrə mənfəət | – | – | 7,067 | 7,067 |
| **31 dekabr 2018-ci il tarixinə qalıq** | **31,813** | **3,302** | **94,880** | **129,995** |
| İl üzrə mənfəət | – | – | 9,154 | 9,154 |
| **31 dekabr 2019-cu il tarixinə qalıq** | **31,813** | **3,302** | **104,034** | **139,149** |